**UOT: 338.43, 338.435**

# KƏND YERLƏRİNDƏ ƏHALİ GƏLİRLƏRİNİN FORMALAŞMASI

**Səid Rövşən oğlu Mustafayev**

***Aqrar Tədqiqatlar Mərkəzinin doktorantı***

***e-mail: said@metalico.az***

***Xülasə***

*Azərbaycanda əmək qabiliyyətli əhalinin 40 faizdən çoxunun kənd yerlərində yaşaması bu sahədə gəlirlərin zəruri səviyyəsinin təmin edilməsi məsələsini gündəmdə saxlayır.*

*Məlumdur ki, kənd əhalisinin gəlirlərinin formalaşdırılması müxtəlif mənbələr hesabına təmin olunur. Kənd təsərrüfatı, həyətyanı təsərrüfatlardan alınan gəlirlər və sosial transferlər bunların əsasını təşkil etdiyindən bu sahədə dövlət tənzimlənməsinin aktivləşdirilməsi də xüsusi diqqət mərkəzində olmalıdır.*

*Məqalədə kənd əhalisinin gəlirlərinin formalaşma mənbələrinə, onlara təsir edən amillərə və bu sahədə dövlət siyasətinin təsiri məsələlərinə baxılır.*

***Açar sözlər:*** *kənd əhalisi, əhali gəlirləri, diferensasiya, gəlirlərə təsir edən amillər, kənd təsərrüfatı, sosial transferlər, aqrar islahatlar.*

## Giriş

Ölkəmizdə həyata keçirilmiş aqrar islahatların uğurlu nəticələri, regionların sosial-iqtisadi inkişafına dair mərhələlərlə dövlət proqramlarının reallaşdırılması kənd yerlərində həyat səviyyəsinin yüksəldilməsinə və yoxsulluğun azaldılmasına güclü təkan vermişdir. Kənd yerlərində əmək ehtiyatlarından səmərəli istifadə olunması eyni zamanda əhalinin məşğulluq və gəlirlilik səviyyəsinin yüksəlməsi də təmin olunmuşdur.

Regionların inkişafı, o cümlədən infrastruktur sahələrinin bərpası və genişləndirilməsi, kənd təsərrüfatı sahələrində istehsalın genişləndirilməsi, emal müəssisələrinin, sosial mədəni obyektlərin yaradılması yeni iş yerlərinin açılmasına, əhali gəlirlərinin və həyat səviyyəsinin yüksəldilməsinə şərait yaratdı (3). Lakin bunlara baxmayaraq, təhlillər göstərir ki, bazar münasibətlərinin indiki inkişafı şəraitində iqtisadi fəaliyyət sahələrində gəlirlərin qeyri-bərabərliyi hələ də, müşahidə olunur, yəni, kənd təsərrüfatı əməyi digər sahələr ilə müqayisədə, müasir mərhələdə aşağı gəlirli sayılır. Son illərdə kənd təsərrüfatında muzdlu işçilərin nominal orta aylıq əməkhaqqı səviyyəsində artım tempinin sürətlənməsinə baxmayaraq o, iqtisadiyyat üzrə cəmi orta aylıq göstəricidən təqribən 2 dəfə geri qalır. Ümumiyyətlə, son dövrlərdə ölkə üzrə ev təsərrüfatlarında həm kənd, həm də, şəhər yerlərində adambaşına düşən nominal və real gəlirlərdə artım baş vermişdir. Şəhər yerləri üzrə həm

orta, həm də, median gəlirlər kənd yerlərində adambaşına düşən orta və median gəlirlərdən çox olmuşdur (4).

Kənd əhalisi ilə şəhər əhalisi gəlirlərinin formalaşmasındakı fərqliliklər birincilərin işə marağını azaldır və miqrasiya proseslərini daima gündəmdə saxlayır. Ona görə də, kənd əhalisi gəlirlərinin formalaşma məsələlərinin araşdırılması aktuallığını saxlamqdadır.

**Kənd əhalisi gəlirlərinin formalaşması prinsipləri**

Müasir mərhələdə kənd əhalisinin həyat səviyyəsinin və ümumiyyətlə, kəndin inkişafının şəhər yerlərinin inkişafı ilə müqayisədə aşağı olması hələ də, davam edir. Bütün bu amillər ölkənin və kəndin məşğulluq və gəlirlər siyasətində dəyişikliklərin və təkmilləşmələrin aparılmasını zəruri etmişdir.

Müasir bazar münasibətləri şəraitində gəlirlər və əməkhaqqı siyasəti dedikdə, gəlirlərin formalaşması, bölüşdürülməsi və istifadəsi sahəsində sosial-iqtisadi münasibətlərin iştirakçıların maraqlarının razılaşdırılmasına imkan verən və qarşıya qoyulan məqsədə nail olunmasını təmin edən tədbirlər sistemi başa düşülür (5). Bu siyasət çərçivəsində əhalinin orta təbəqələrinin həyat səviyyəsinin sabitləşməsi və yüksəldilməsi, əhali gəlirlərində mövcud fərqlərin artmasının və bununla bağlı cəmiyyətdə təbəqələşmə prosesinin güclənməsinin qarşısının alınması, iqtisadiyyatın ayrı-ayrı sahələri üzrə, ölkənin regionları üzrə, peşə-ixtisas və vəzifə kateqoriyaları üzrə əməyin qiymətini əməkhaqqının səviyyəsinin optimallaşdırılması və yoxsulluğun azaldılması vəzifələri reallaşdırılır.

İndiki halda gəlirlər və əməkhaqqı siyasətinin həyata keçirilməsi mexanizminə dövlət və bazar, inzibati və hüquqi, iqtisadi və sosial normativlərin qarşılıqlı əlaqəsi daxildir.

Əhali gəlirlərinə əməkhaqqı, sahibkarlıq və mülkiyyətdən gəlirlər, sosial transfertlər aid edilir. Bazar iqtisadiyyatı şəraitində sahibkarlıq fəaliyyətindən və xüsusi mülkiyyətdən gəlirlər yüksək rola malik olur.

Araşdırmalar göstərir ki, müasir mərhələdə kənd əhalisinin gəlirlər siyasəti əsasən aşağıdakı prinsiplər üzrə formalaşdırılır:

- *kənd əhalisinin müxtəlif təbəqələrinin gəlirlərinin tənzimlənməsində dövlətin rolunun yüksəlməsi və sosial ədalətin təmin edilməsi;*
- *kənd təsərrüfatında əməyin stimullaşdırılması və əməkhaqqının artırılması;*
- *kənd təsərrüfatında əməyin ödənilməsində tarif razılaşmalarının və kollektiv müqavilələrinin rolunun artırılması;*
- *işsizliyin ləğvi, məşğulluğun yüksəldilməsi (yeni iş yerlərinin açılması) və aqrar sektorda məşğulluğun çevik modelinin tətbiqi;*
- *kənd təsərrüfatında bitkiçiliyin inkişafı və ənənəvi istehsal sahələrinin bərpası;*
- *aqrar əmək bazarında rəqabət qabiliyyətli işçi qüvvəsinin formalaşması;*
- *kənd yerlərində yaşayan iqtisadi fəal və iqtisadi qeyri-fəal əhalinin sosial müdafiəsinin yaxşılaşdırılması.*

Kənd təsərrüfatı azgəlirli və riskli sahə olduğundan burada çalışan əhalinin gəlirlərinin tənzimlənməsində dövlətin rolu xüsusilə aktualdır və burada tənzimlənmənin aşağıdakı prinsipləri öz aktuallığını saxlayır:

- *realizə olunan kənd təsərrüfatı məhsullarına dövlət kvotası və təminatlı qiymətlərin tətbiqi;*
- *realizə olunan kənd təsərrüfatı məhsullarına vaxtında ödənişin aparılmaması üçün iqtisadi sanksiyaların tətbiqi;*
- *kənd təsərrüfatı məhsullarının bazara çıxış imkanlarının artırılması və müvafiq infrastrukturun yaradılması;*
- *kənd təsərrüfatı istehsalı və emal sənayesi arasında qiymət disparitetinin azaldılması;*
- *kənd yerlərində özünüməşğulluqdan və sahibkarlıqdan gəlirlərin formalaşması şəraitinin yaxşılaşdırılması (yalnız torpaq vergisinin saxlanılması, güzəştli kreditlərin verilməsi, nəqliyyat sisteminin yeniləşməsi və s.);*
- *kənd yerlərində gəlirlərin əldə edilməsində qeyri-kənd təsərrüfatı sahələrinin rolunun artırılması.*

Qeyd olunanlara nail olunması bu sahədə dövlət tənzimlənməsi riçaqlarının səmərəli tətbiqindən keçir. Bazar münasibətləri şəraitində dövlət əldə olunan gəlirlərin və əməkhaqqının tənzimlənməsində minimum sosial standartlar sisteminin müəyyən edilməsi, gəlirlər və əməkhaqqı sahəsində konstitusiyada nəzərdə tutulmuş zəmanətlərin təmin olunması üçün büdcə vəsaitlərinin həcminin müəyyənləşdirilməsi və istifadəsi, fiziki və hüquqi şəxslərin əldə etdiyi gəlirlərin səviyyəsinə vergiqoyma sistemi vasitəsilə birbaşa və dolayı təsir göstərməklə həyata keçirir. Bununla yanaşı, dövlət sosial tərəfdaşlıq sistemi çərçivəsində danışıqlar proseslərində iştirak edir, müxtəlif səviyyəli sosial proqramları reallaşdırır.

## Kənd yerlərində əhali gəlirlərinin formalaşması meyilləri

Bütün bunların tətbiqinin son illər aktivləşməsi öz müsbət nəticələrini verməkdədir. Aparılan araşdırmalar göstərir ki, son illərdə kənd yerlərində əhali gəlirlərinin formalaşmasında aşağıdakı meyllər daha çox müşahidə olunur:

- *kənd yerlərində qeyri-neft sektorunun inkişafı və gəlirlərin artması;*
- *eyni zamanda kənd əhalisinin məcmu gəlirlərinin şəhər yerləri ilə müqayisədə aşağı olması;*
- *kənd təsərrüfatında fərdi sahibkarlıq təsərrüfatlarının satış imkanlarının istənilən səviyyədə olmaması və onun kənd əhalisinin gəlirlərinə təsir etməsi;*
- *kənd təsərrüfatında çalışan muzdlu işçilərin orta aylıq nominal əməkhaqqının artmasına baxmayaraq onun iqtisadiyyatın bir çox sahələri ilə müqayisədə aşağı olması.*

Qeyd etmək lazımdır ki, bazar iqtisadiyyatına keçidlə əlaqədar, kənd əhalisinin gəlir əldə etmək imkanlarının çoxalması və həyat səviyyəsinin yaxşılaşdırılması məqsədi ilə əsaslı torpaq islahatı həyata keçirildi və torpaqdan səmərəli istifadə imkanları artdı. Kənd təsərrüfatında özəl sektorun formalaşması, yeni iqtisadi münasibətlərə keçidlə əlaqədar yaranan yüksək işsizliyin və gəlirlərin kəskin aşağı düşməsinin qarşısı alınmışdır.

Kənd yerlərində gəlirlərin mövcud vəziyyətinin təhlili göstərir ki, ölkədə həyata keçirilən islahatlar, mülkiyyət münasibətlərinin dəyişilməsi və bazar iqtisadiyyatının formalaşması bölgü münasibətlərində, gəlirlərin formalaşması şəraitində dəyişikliklərə gətirib çıxartdı. Məşğulluq sferasının strukturu dəyişildi, kənd təsərrüfatı və sənaye məhsulları arasında qiymət dispariteti özünü

daha qabarıq göstərdi. Gəlirlərin formalaşması mənbələri və onun strukturu dəyişikliklərə məruz qaldı. Bütün bu amillər, digər tərəfdən sosial şəraitin aşağı səviyyədə olmasına, kənd təsərrüfatında məşğulluğun səviyyəsinə, əmək məhsuldarlığına, muzdlu işçilərin əməkhaqlarına, kənd əhalisinin məcmu gəlirinin formalaşmasına və eyni zamanda onun strukturuna təsir göstərmişdir (2).

Təhlil göstərir ki, müasir inkişaf şəraitində kənd təsərrüfatında əməkhaqlarının aşağı olması kənd əhalisinin məcmu gəlirlərinin formalaşmasına, yaşayış yerləri üzrə sosial təbəqələşməyə əsaslı təsir göstərməkdədir. Yaşayış yerləri üzrə statistik məlumatların təhlili göstərir ki, kənd yerləri üzrə 2013-2018-ci illərdə məcmu gəlirin artım sürəti şəhər yerləri üzrə uyğun göstəricini üstələyir. Bununla belə, kənd yerlərində yaşayış yerləri üzrə gəlirlərin strukturunda məşğulluqdan gəlirlərin səviyyəsi şəhər yerləri ilə müqayisədə geri qalmaqdadır.

Kənd əhalisi gəlirlərinin formalaşmasında kənd təsərrüfatından gəlirlər mühüm rol oynayır. Son illərin iqtisadi göstəriciləri belə qənaətə gəlməyə əsas verir ki, kənd əhalisinin məcmu gəlirinin strukturunda məşğulluqdan və özünüməşğulluqdan gəlirlərin, kənd təsərrüfatı istehsalında olan gəlirlərin xüsusi çəkiləri arasında müəyyən yaxınlaşma müşahidə edilməkdədir. Yəni, kənd əhalisinin gəlir əldə etmək mənbələrinin strukturunda müsbət meyillər dayanıqlığını artırmaqdadır.

Araşdırma göstərir ki, əhali gəlirlərinin diferensiallaşmasına digər müxtəlif amillər də təsir göstərir. Yəni əhali gəlirlərinin formlaşması və diferensiallaşmasında ümumi amillərlə yanaşı (bazarın strukturu, fərdi qabiliyyət, təhsil və s.) müasir cəmiyyətdə fəaliyyətdə olan sosial normalar, əhalinin yaşadığı ərazi və resurslar mühüm rol oynayır.

Gəlirlərin diferensiallaşması cəmiyyətin təbəqələşməsinə meyillər yarada bilir. Müasir tədqiqatçılar əhali gəlirlərinin diferensiallaşmasına onun sosial proseslərə və insan həyatının bir çox aspektinə təsirinin qiymətləndirilməsinə xüsusi diqqət yetirirlər.

Gəlirlərin formalaşmasında dövlət siyasətinin səmərəliliyi gəlirlərin bölünməsindən və onun səviyyəsindən birbaşa asılıdır. Ölkənin iqtisadi təhlükəsizliyinin təmin olunmasında əhalinin əmlak diferensasiyası, yoxsulluq səviyyəsi, regionların sosial-iqtisadi inkişafındakı fərqlilik, dövlətin regional siyasət fəaliyyəti sferasına aid edilərək ölkənin ərazi miqyasında sosial problemlərin həllində və istehsal resurslarının səmərəli yerləşdirilməsi kimi məsələlərdə sosial siyasətin tərkib hissəsini təşkil edir (6). Bu eyni zamanda iqtisadi fəallığın yüksəldilməsi və regionlarda əhalinin həyat şəraitinin yaxşılaşmasına xidmət edir.

Müasir cəmiyyətdə gəlirlərin diferensasiyasının aşağı salınmasında yeni mexanizm və elementlərdən istifadə edilir. Gəlirlərin dövlət tənzimlənməsinin əsas elementlərindən biri inkişaf etmiş ölkələrdə istifadə olunan – ÜDM-də əməkhaqqının xüsusi çəkisinin reqlamentləşdirilməsidir.

Gəlirlərin tənzimlənməsində minimum əməkhaqqı ölçüsünün müəyyən edilməsi aləti də istifadə olunur. Tənzimləmə vasitəsi kimi, həmçinin əməkhaqqının yüksək səviyyəsinin nizamlanması və gəlirlərin diferensiallaşmasının yüksək səviyyəsinin qarşısının alınması məqsədi ilə fiziki şəxslərdən mütərəqqi gəlir - vergi şkalasından istifadə edilməklə yanaşı mülkiyyətə, pul və natural formada isə transfert olunan gəlirlərə vergi dərəcəsi tətbiq edilir.

Nəticədə gəlirlərin kəskin diferensiallaşması səviyyəsində azalma meyli müşahidə olunur.

Əhali gəlirlərinin diferensasiyasının qiymətləndirilməsində ərazi amilinin nəzərə alınması məqsədəuyğundur. Bu, regionların sosial-iqtisadi inkişafinda və əhalinin maddi rifahının yaxşılaşdırılmasında da, əhəmiyyət kəsb edir. Regionlarda sosial-iqtisadi inkişafın göstəriciləri paytaxt göstəricilərindən geri qalır. Bu amil ölkənin sosial-iqtisadi inkişaf modelinin təkmilləşdirilməsini tələb edir. Müasir inkişaf mərhələsində iqtisadi siyasətin aparılması

makroiqtisadi göstəricilərin tənzimlənməsinə əsaslanır. Bu amildən istifadə edilərək, ölkənin iqtisadi maliyyə vəziyyətinin sabitləşdirilməsinə və sosial təhlükəsizliyinin təminatı məsələlərinə diqqət artırılır.

Hazırda ölkənin inkişaf modeli sosialyönümlüdür. Ölkənin müasir inkişaf mərhələsində gəlirlərin tənzimlənməsinin dövlət siyasəti yoxsulluğun azaldılması istiqamətində həyata keçirilir. Müasir mərhələdə gəlirlərin formalaşmasında aşağıdakı amillərə mühüm yer ayrılır:

- *qeyri-dövlət sektorunun üstünlük təşkil etməsi;*
- *dövlətin sosial sferanın idarə edilməsində rolunun güclənməsi;*
- *daxili və xarici mühit amillərinin dəyişməsi.*

**Nəticə**

Yuxarıda qeyd edildiyi kimi, görülən tədbirlərə baxmayaraq, müasir şəraitdə kənd əhalisinin məcmu gəlirinin şəhər əhalisinin gəlirləri ilə müqayisədə aşağı olması fərqi qalmaqda davam edir. Buna təsir edən əsas amillər sırasında, aqrar sektorda təsərrüfat kateqoriyaları üzrə (ev təsərrüfatları, kənd təsərrüfatı müəssisələri, fərdi sahibkarlıq təsərrüfatları) istehsal olunan məhsulların qiymətlərinin bir sıra hallarda sərfəli olmaması və satış imkanlarının məhdud olması, satışdan gəlirlərin aşağı olması da mühüm yer tutur. Qarşıdakı illərdə digər amillərlə yanaşı, yerli sahibkarların xarici bazarlara çıxışının dövlət tərəfindən təşviqinin genişləndirilməsi kənd əməkçilərinin gəlirlərinin daha da, artırılmasına öz müsbət nəticələrini göstərəcəkdir. Bununla da, kənd əhalisi ilə şəhər əhalisi gəlirləri arasındakı fərqin ixtisar olunması və miqrasiya məsələsinin kəndin xeyrinə dəyişilməsi imkanları artacaqdır.

**Ədəbiyyat**


1. “Azərbaycan 2020: gələcəyə baxış” İnkişaf Konsepsiyası. https://president.az/files/future_az.pdf
2. Davamlı insan inkişafının demoqrafik aspektləri. Sosial-iqtisadi inkişafda demoqrafik amillər. http://www.undp.org.
3. “Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair Strateji Yol Xəritəsi”. Azərbaycan Respublikasının Prezidentinin 2016-cı il 06 dekabr tarixli Fərmanı ilə təsdiq edilmişdir.
4. Musayev T.M., Hüseynzadə A.N. Azərbaycanın ev təsərrüfatlarında əhalinin hər nəfərinə düşən orta aylıq pul gəlirlərinin şəhər və kənd yerləri üzrə müqayisəli təhlili/ “Kənd təsərrüfatının iqtisadiyyatı” elmi-praktiki jurnalı, 2021 №1
5. Quliyev V.M. Azərbaycan Respublikasında yoxsulluğun və sosial qeyri-bərabərliyin azaldılmasının hüquqi tənzimlənməsinin təkmilləşdirilməsi. İqtisad üzrə fəlsəfə doktoru dissertasiyasının Avtoreferatı. Bakı, 2013, s. 27
6. Salahov S.V. Aqrar sahənin dövlət tənzimlənməsi problemləri. Bakı -2004, s. 503

S.R. Mustafayev
*Ph.D. student* of the Agro Researches Center

## Formation of population income in rural areas

*Summary*

*The fact that more than 40% of the able-bodied population in Azerbaijan live in rural areas raises the issue of ensuring the necessary level of income in this area.*

*It is known that the formation of incomes of the rural population is provided by various sources. Since the income from agriculture, backyard farms and social transfers are the basis for this, the activation of state regulation in this area should also be in the focus of special attention. The article considers the sources of income of the rural population, the factors affecting them and the impact of state policy in this area.*

***Keywords:*** *rural population, income of population, differentiation, facts impacted to incomes, income of rural and urban population, agriculture, social transfers, agrarian reforms.*

С.Р. Мустафаев
*Докторант* Центра аграрных исследований

## Формирование доходов населения в сельских местах

*Резюме*

*Тот факт, что более 40% трудоспособного населения Азербайджана проживает в сельской местности, ставит вопрос об обеспечении необходимого уровня доходов в этой сфере.*

*Известно, что формирование доходов сельского населения обеспечивается различными источниками. Поскольку в основе этого лежат доходы от сельского хозяйства, подсобных хозяйств и социальные выплаты, активизация государственного регулирования в этой сфере также должна быть в центре внимания. В статье рассматриваются источники доходов сельского населения, факторы, влияющие на них, и влияние государственной политики в этой сфере.*

***Ключевые слова:*** *сельское население, доходы населения, дифференциация, факторы, влияющие на доход, доходы сельского и городского населения, сельское хозяйство, социальные трансферы, аграрные реформы.*